Noyabrın 1-dən 15-dək Elm və Təhsil Nazirliyi və tabeliyində olan qurumlara ümumilikdə 27 097 vətəndaş müraciəti daxil olub.

Müraciətlərin 4 609-u elektron qaydada, 1 700-ü yazılı formada, 16 014-ü çağrı mərkəzləri vasitəsilə qəbul edilib. Bundan əlavə, 4 774 müraciət vətəndaş qəbulu zamanı qeydə alınıb.

Daxil olan müraciətlər əsasən şagirdlərin elektron yerdəyişməsi, olimpiada və müsabiqələr, təhsil tələbə kreditinə elektron müraciət, məktəbəqədər təhsil müəssisələrinə qəbul və digər məsələlərlə bağlı olub.